**Almaniyanın Helle şəhərində yerləşən Keçid İqtisadiyyatlarında Kənd Təsərrüfatının İnkişafı üzrə "Leybnits" İnstitutu (https://www.iamo.de/en/institute/career-jobs/) tərəfindən təklif olunan təhsil və təqaüd proqramları:**

1. Üç illik müxtəlif doktorantura proqramları. Müraciət üçün son tarix 2018-ci ilin yanvar ayıdır (proqramlardan asılı olaraq dəyişir). Namizədlərə aylıq əmək haqqının ödənilməsi Almaniya qanunvericiliyinə uyğun olaraq həyata keçiriləcəkdir. Tələb olunan sənədlər də proqramdan asılı olaraq dəyişir (vahid "pdf" şəklində, ingilis dilində): 1 səhifəlik motivasiya/müsayiət məktubu, tərcümeyi-hal, magistr diplomunun və qiymət cədvəlinin surətləri, tədqiqatın məqsədlərini və metodologiyasını özündə ehtiva edən konsepsiya, məqalələrin siyahısı, ingilis dilini bilmə haqqında şəhadətnamə, tövsiyə məktubu üçün 2 akademik şəxsin əlaqə təfsilatları;

2. "Qafqaz və Mərkəzi Asiyada davamlı regional inteqrasiya üçün kənd təsərrüfatı ticarəti və xarici sərmayələr" layihəsi çərçivəsində Qafqaz və Mərkəzi Asiya ölkələrinin üç alimi üçün Almaniyaya iki aylıq tədqiqat səfəri təklif olunur. Seçiləcək namizədlərin beynəlxalq nəqliyyat xərcləri maliyyələşdiriləcək və kvalifikasiyalarından asılı olaraq onlara aylıq əsasda 1000-2000 avro məbləğində təqaüd ödəniləcəkdir. Tələb olunan sənədlər (vahid "pdf" şəklində, ingilis dilində): motivasiya məktubu, dərc olunmuş məqalələri özündə ehtiva edən tərcümeyi-hal. Müraciət üçün elektron poçt: elsner@iamo.de Elektron poçtun mövzusu: "Application to visiting scientist fellowship". Tədqiqat işlərinin nəticələri 2018-ci ilin sentyabr ayında Bakıda keçirilməsi nəzərdə tutulan IAMO (Kənd təsərrüfatının iqtisadiyyatı sahəsində fundamental və tətbiqi tədqiqatlar aparan dövlət institutu) ilə Alman Akademik Mübadilə Xidmətinin (DAAD) birgə konfransı zamanı təqdim olunacaqdır. Seçim prosesi zamanı aşağıdakı mövzular üzrə çalışan alimlərə üstünlük veriləcək:

- "Bir Kəmər", "Bir Yol" təşəbbüsü;
- Kənd təsərrüfatı əmtəələrinin regionlararası və beynəlxalq ticarətin asanlaşdırılması imkanları;
- Siyasətin tənzimlənməsi və ticarətə maneələr;
- Qlobal və regional inteqrasiya siyasətləri çərçivəsində dəyər bağlantılarının transformasiyası;
- Kənd təsərrüfatı istehsalının məhsuldarlığı və səmərəliliyi;
- İqlim dəyişkənliyinin kənd yerlərində yaşayışa təsiri;
- İqlim dəyişikliyi üzrə adaptasiya tədbirlərinin rolu;
- Kənd təsərrüfatı sahəsində sığorta bazarlarının inkişafı.

3. IAMO 6 qabaqcıl alimə Qonaq Tədqiqat Proqramı çərçivəsində 2 illik təqaüd təklif edir. Seçiləcək alimlər innovativ tədqiqat ideyalarını inkişaf etdirir və spesifik məsələ üzrə mövcud araşdırmaları təqdim edirlər. Namizədlərin yerləşmə və beynəlxalq nəqliyyat xərcləri IAMO tərəfindən maliyyələşdirilir. Tələb olunan sənədlər: 3000 sözdən ibarət tədqiqat təklifi, müşayiət məktubu dərc olunmuş məqalələri özündə ehtiva edən tərcümeyi hal. Müraciət üçün son tarix yoxdur.